

# Yubiley gecəsi

***Şairlər peyğəmbərlərdən sonra Allaha yaxın adam sayılır. Çünki şer yazmaq qabiliyyəti onlara tanrı tərəfindən verilmiş qeyri-adi bir fitri istedaddır. Poetik düşüncə tərzinə görə bir-birindən fərqlənən hər bir şair özünəməxsus şer yazmaq qabiliyyətinə malikdir. Öz dəsti-xətti ilə Azərbaycan poeziyasının yaddaşında naxışlanan S.Vurğun yaradıcılığı XX əsr ədəbiyyatımızın ən parlaq və təkrarsız səhifələrindən birini təşkil edir.***

Məhz elə buna görə də Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev 6 fevral 2006-cı il tarixdə S. Vurğunun 100 illik yubileyinin layiqincə keçirilməsinə dair sərəncam imzalamışdır. Sərəncamdan irəli gələn məsələləri həyata keçirmək məqsədi ilə bu yaxınlarda H.Eynullayev adına Saatlı Rayon Mərkəzi Kitabxananın kollektivi yubilyarın 100 illiyinə həsr olunmuş ədəbi-bədii gecə keçirmişdir. Gecəni giriş sözü ilə Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru S.Bağırov açaraq ilk sözü Mərkəzi Kitabxananın direktor müavini A.Mirzəyevə vermişdir. O, şairin poeziya aləmində tutduğu mövqeyindən söhbət açmışdır.

Saatlı rayon "Dönüş" qəzetinin redaktoru, əməkdar mədəniyyət işçisi, kərbəlayi Qaçay müəllim Əhmədov Azərbaycan Elmlər Akademiyasının ilk akademiklərindən biri olan S. Vurğunun görkəmli ictimai-siyasi xadim kimi xidmətlərindən danışaraq bildirmişdir ki, S. Vurğunun xalqımızın ictimai-siyasi həyatındakı fəaliyyəti həqiqətən də təqdirəlayiqdir.

Adilikdən fəlsəfə yaradan S. Vurğunun ürək alovlayan, hisslərə, duyğulara kəmənd atıb tilsimə salan misralarının insan mənəviyyatına, zəkasına təsir gücü haqqında isə şair, publisist Qalib Bayram danışmışdır.

Ədəbi mühitin yaradıcılarından biri olan Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair Qəmbər Əhmədli çıxışında qeyd etdi ki, S. Vurğunun bədii irsi mədəniyyətimizin inkişafında yeni mərhələ açmaqla yanaşı müasir Azərbaycan dilinin və ədəbiyyatının zənginləşməsində mühüm rol oynamışdır.

S. Vurğunun "Azərbaycan" şerinə bəstələnmiş musiqisinin tərbiyəvi əhəmiyyəti haqqında Saatlı rayon Bülbül adına 7 illik uşaq musiqi məktəbinin direktoru hacı Kamal müəllim Gülüşov, yubilyarın lirikası - məhəbbət ətirli şerləri haqqında Saatlı rayon S. Vurğun adına 1 saylı şəhər orta məktəbin müəllimi Sabir Tağıyev, sənət aləmində çox nüfuzlu simalardan biri kimi tanınan şairin həyat və yaradıcılığı, dramaturgiyası haqqında isə rayon Ziyalılar Cəmiyyətinin sədri, əməkdar müəllim Heydər Heydərov və Əbülfəz Əlməmmədov maraq doğuran çıxışlar etmişlər.

Tədbir zamanı H.Heydərov mədəni-kütləvi tədbirlərin keçirilməsi və ictimai-siyasi fəaliyyətinə görə Mərkəzi Kitabxananın direktoru S.Bağırovu fəxri fərmanla təltif etmişdir.

Rayon Mərkəzi Kitabxananın nəzdində fəaliyyət göstərən "Muğan" ansamblının üzvlərindən G.Bağırov, H.Səfərov, Ə.Səfərov və başqa musiqi həvəskarları keçirilən tədbirdə öz musiqi nömrələri ilə çıxışlar etmişlər. Onlar şairin sözlərinə yazılmış mahnılar ifa etmişlər ki, bu da keçirilən tədbirin bədii təsir gücünü daha da artırmışdır.

Sarıcalar orta məktəbinin müəllimlərindən Svetlana Musayevanın və Xanım Fəxrəddinovanın rəhbərliyi altında hazırlanmış ədəbi-bədii kompozisiya tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanmışdır. Şagirdlərdən Gülnar, Gülbəniz, Aygün, Sürayyə, Şəbnəm, Naibə, Aysel, Gülşən, Elçin, Güləhməd, Əzizağa, Pərviz və digərləri yubilyarın şerlərini söyləmişlər. Yüksək səviyyədə keçirilən ədəbi-bədii gecədə xatirə üçün fotoşəkillər də çəkilmişdir.

Ədəbi-bədii gecəni yekun sözü ilə rayon Mədəniyyət və Turizm şöbəsinin müdiri Akif İslamov tamamladı. Rayon "Dönüş" qəzetinin baş redaktoru kərbəlayi Q.Əhmədov sonda bildirdi ki, dahi şairimiz S.Vurğunun yubileyinin geniş şəkildə keçirilməsi haqqında respublika prezidenti İ.Əliyev cənablarının verdiyi sərəncam bir daha sübut edir ki, həqiqətən yaradıcı adamlar unudulmur. Prezidentimizin yaradıcı adamlara xüsusi diqqət və qayğı ilə yanaşması biz ziyalıları daha da ruhlandırır. Q.Əhmədov S.Vurğunun ev-muzeyinə gedişlərin təşkil olunmasını da tövsiyə etdi.

Keçirilən ədəbi-bədii gecədə Saatlı Rayon İcra Hakimiyyətinin işçilərindən Azər Həsənov və Xəyal Ağayev iştirak etmişlər.

Tədbir musiqi sədaları altında sona yetmişdir.

***İbrahim XIDIROV,***
***Saatlı rayon MKS-nin metodika şöbəsinin müdiri, AYB-nin üzvü***